

# POLİS

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

www.pq.mia.gov.az

polisazerbaycan

4 iyun 2026-cı il
Cümə axşamı

1933-cü ildən çıxır
№ 20 (3783)


# Bakıda qlobal enerji dialoqu



## Prezident ölkəmizin enerji strategiyasının hədəflərini açıqladı

***Prezident İlham Əliyev : "Boru xətti ilə qazın müxtəlif ölkələrə nəql edilməsi, ərazi və coğrafiya kimi parametrlərə baxsanız görərsiniz ki, biz dünyada birinciyik. Biz qaz təchizatımızı artıracağıq".***

Qlobal enerji bazarında geosiyasi və iqtisadi proseslərin sürətlə dəyişdiyi bir dövrdə Prezident İlham Əliyevin Bakı Enerji Həftəsində səsləndirdiyi fikirlər Azərbaycanın enerji siyasətinin nəticələrini və qarşıdakı illər üçün strateji hədəflərini ortaya qoydu.

Məlum olduğu kimi, iyunun 1-də Bakı Ekspo Mərkəzində Bakı Enerji Həftəsinin rəsmi açılış mərasimi keçirildi və tədbir çərçivəsində 31-ci Beynəlxalq Xəzər Neft və Qaz Sərgisi "Caspian Oil and Gas", 14-cü Xəzər Beynəlxalq Təmiz Enerji Sərgisi "Caspian Power" və 31-ci "Baku Energy Forum" öz işinə başladı.

Açılış mərasimində geniş məzmunlu çıxış edən dövlət başçısı Azərbaycanın enerji sektorunda keçdiyi inkişaf yolundan, enerji təhlükəsizliyinin təmin olunmasında ölkəmizin rolundan, neft və qaz layihələrinin iqtisadi inkişafa verdiyi töhfələrdən, bərpaolunan enerji sahəsində həyata keçirilən proqramlardan, beynəlxalq əməkdaşlıqdan və gələcək enerji strategiyasından danışıb.

Prezident qeyd edib ki, müasir Azərbaycanın enerji inkişafının təməli 1994-cü ildə "Əsrin müqaviləsi"nin imzalanması ilə qoyulub. Sonrakı illərdə həyata keçirilən layihələr ölkənin iqtisadi və siyasi müstəqilliyinin möhkəmlənməsində həlledici rol oynayıb. Dövlət başçısı xatırladıb ki, 1990-cı illərin əvvəllərində Azərbaycan ağır sosial və iqtisadi böhranla üzləşmişdi. Ərazinin təxminən 20 faizi işğal altında idi, bir milyondan çox qaçqın və məcburi köçkün mövcud idi, yoxsulluq səviyyəsi 50 faizdən yuxarı idi.

Bu gün isə mənzərə tamamilə fərqlidir. Prezident bildirib ki, yoxsulluq səviyyəsi 5 faizə qədər azalıb, işsizlik də təxminən eyni göstəricidədir. Azərbaycanın xarici borcu ümumi daxili məhsulun cəmi 6 faizindən bir qədər çoxdur. Dövlət Neft Fondu və Mərkəzi Bankın ehtiyatları isə xarici borcu 18 dəfədən artıq üstələyir.

Əgər ötən il Azərbaycan qazı 12 ölkəyə ixrac olunurdusa, hazırda bu rəqəm 16-ya çatıb. Həmin ölkələrdən 10-u Avropa İttifaqının üzvüdür. Gələcəkdə bu coğrafiyanın daha da genişlənməsi gözlənilir. Vaxtilə xarici sərmayələri cəlb edən Azərbaycan bu gün SOCAR vasitəsilə Yaxın Şərq, Afrika və Mərkəzi Asiyada investisiya layihələri həyata keçirir. Şirkətin emal gücü isə son satınalmalardan sonra 30 milyon tondan artıq səviyyəyə yüksəlib.

Bərpaolunan enerji sahəsində həyata keçirilən layihələrə də diqqət ayıran Prezidentin sözlərinə görə, 2027-ci ilin sonuna qədər ölkədə günəş və külək enerjisi üzrə quraşdırılmış güc 2 giqavata çatacaq. 2032-ci ilin sonuna qədər isə bu göstəricinin 8 giqavat olması planlaşdırılır.




Qarabağ və Şərqi Zəngəzurda artıq 300 meqavatdan çox hidroenerji gücü istifadəyə verilib.

Azərbaycanın enerji strategiyasında regional əməkdaşlıq mühüm yer tutur. Qara dəniz Enerji Kabeli layihəsi vasitəsilə Azərbaycan enerjisinin Avropaya çatdırılması nəzərdə tutulur. Bununla yanaşı, Azərbaycan, Gürcüstan, Türkiyə və Bolqarıstan arasında yeni elektrik bağlantılarının yaradılması istiqamətində işlər davam edir. Mərkəzi Asiya ölkələri ilə birlikdə Xəzərin şərq sahillərindən uzanacaq yaşıl enerji kabeli layihəsi də gündəmdədir.

# Prezident ABŞ Prezidentinə təşəkkür edib

## Azadlığa Dəstək Aktına 907-ci düzəlişin dayandırılmasının müddəti uzadılıb

Prezident İlham Əliyev Azadlığa Dəstək Aktının 907-ci maddəsinin ləğv müddətinin uzadılması haqqında memorandumla bağlı sosial şəbəkə hesablarında paylaşım edib. Paylaşımda deyilir: "Möhtərəm Prezident Donald Tramp, Azadlığa Dəstək Aktına 907-ci düzəlişin dayandırılması müddətinin uzadılması barədə memorandumu şəxsi qeydiniz və xoş sözlərinizlə birlikdə mənə xatirə hədiyyəsi olaraq göndərdiyiniz üçün Sizə səmimi təşəkkürümü bildirmək istəyirəm. Bu diqqətəlayiq jesti yüksək qiymətləndirir və ona böyük ehtiram bəsləyirəm".

# Səmərəli görüş

## Azərbaycan-ABŞ əlaqələri yeni mərhələyə qədəm qoyur

Prezident İlham Əliyev iyunun 1-də ABŞ Dövlət katibinin iqtisadiyyat, enerji və biznes məsələləri üzrə köməkçisi Kaleb Orrun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Görüşdə son dövrlərdə ikitərəfli münasibətlərimizin uğurla inkişaf etdiyini deyən dövlətimizin başçısı Azərbaycanla ABŞ arasında imzalanmış Strateji Tərəfdaşlıq Xartiyası əsasında müxtəlif sahələr üzrə əməkdaşlığın inkişaf etdirilməsi üçün işçi qruplarının yaradılmasının əhəmiyyətinə toxunub, Azərbaycan-ABŞ İqtisadi Dialoqunun ilk iclasının keçiriləcəyini vurğulayıb. Prezident bu səfərin əməkdaşlığın perspektivlərini müzakirə etmək baxımından yaxşı imkan yaratdığını bildirib. Söhbət zamanı qarşılıqlı maraq doğuran məsələlər müzakirə olunub.

# Qarabağda böyük quruculuq

## Prezident açılışlarda iştirak edib

Prezident İlham Əliyev mayın 28-də Müstəqillik Günü münasibətilə Xankəndi şəhərindəki Zəfər parkında ucaldılan Zəfər tağının önünə gül dəstələri düzüb.

Dövlət başçısı həmin gün Xankəndidə "GP Safety" MMC-nin iş əlcəkləri istehsalı müəssisəsinin açılışında iştirak edib. Bundan başqa, Şuşa şəhərinin Böyük Qaladərəsi kəndində fərdi evlərin və infrastrukturun bərpası sahəsində görülən işlərlə tanış olub və sakinlərlə görüşüb.

Xocalı şəhərində "Qarabağ Tekstil Evi" Məhdud Məsuliyyətli Cəmiyyətinin (MMC) açılışında da iştirak edən dövlət başçısı Xocalıda əsaslı təmir edilən və hərbi qulluqçular üçün nəzərdə tutulan fərdi evlərdə yaradılmış şəraitlə tanış olub. Eləcə də Xankəndidə yenidən qurulmuş Mədəniyyət Mərkəzinin açılışında iştirak edib.

# Bakı dünyaya örnək oldu

## Paytaxtımız dünya üçün təhlükəsiz şəhər modelidir

Mayın 17-dən 22-dək Bakı dünyanın siyasi, urbanistik və ictimai diqqət mərkəzində qaldı. BMT-nin təşkil etdiyi 13-cü Ümumdünya Şəhər Forumu (WUF13) gələcəyin şəhərlərini necə təhlükəsiz etmək olar sualından birinə cavabı paytaxtımızda axtardı, burada geniş müzakirələr aparıldı. Tədbirin açılış mərasimində Prezident İlham Əliyevin dediyi kimi, 180-dən çox ölkədən gələn 25 minə yaxın iştirakçının qatıldığı forum əslində bu suala Bakının timsalında cavab verdi. BMT-nin şəhərsalmada təhlükəsizliyi ön plana çıxarması göstərir ki, bu məsələ dünyada iri şəhərlər üçün ciddi problemlərdən biridir və həlli yollarını tapmaq üçün yeni yanaşmalara ehtiyac var.

*(Ardı 2-ci səhifədə)*

# Kiberhücumlardan necə qorunaq?

## Şəxsi məlumatları paylaşmaq ciddi risklərə səbəb olur

Rəqəmsal texnologiyaların sürətlə inkişaf etdiyi müasir dövrdə həyatımızın mühüm hissəsi virtual mühit və internet üzərindən formalaşır. Kommunal ödənişlərdən alış-verişə, bank əməliyyatlarından sosial media hesablarına qədər hər şeyi artıq bir neçə toxunuşla idarə etmək mümkündür. Amma rahatlıq artdıqca risklər də çoxalır. Son illərdə xüsusilə bank kartı məlumatlarının oğurlanması, fişinq hücumları və müxtəlif kiberdələduzluq üsulları geniş yayılıb. Belə hallarda isə bir çox insan "hesabımda böyük məbləğ yoxdur" və ya "mənim başıma belə hadisə gəlməz" düşüncəsi ilə təhlükəni ciddi qəbul etmirlər.

*(Ardı 3-cü səhifədə)*


DNT-nin izi ilə...



2

Vətən qəhrəmanları ilə Vətən olur



3

"Yol Polisimizlə bir gün"



3

Barmaq izi olmayanlar...



4

# Respublika Xəbərləri

### Hərbi çağırışla bağlı Sərəncam

Prezident İlham Əliyev 2026-cı ilin iyul çağırışı ilə bağlı sərəncam imzalayıb. Sərəncama əsasən, iyulun 1-dən 30-dək 18 yaşı tamam olmuş və hərbi xidmət keçməmiş şəxslər müddətli həqiqi hərbi xidmətə çağırılacaq. Eyni zamanda xidmət müddəti başa çatan hərbi qulluqçular ehtiyata buraxılacaqlar.

### Bu küçələr piyadalaşır

AYNA Bakının mərkəzində daha bir neçə küçənin piyadalaşdırılması ilə bağlı layihəyə başlayacaq. Qərara əsasən, Əlimərdan Topçubaşov, Lev Tolstoy, Yusif Məmmədəliyev, Rəsul Rza və Xaqani küçələri avtomobilsiz zonaya çevriləcək. Layihə çərçivəsində Fəvvarələr meydanı, Qış parkı və Mərkəzi parkı birləşdirən geniş piyada marşrutları yaradılacaq. Avtomobillərin parklanma yerləri isə yaxın küçələrə köçürüləcək.

### Bakı İqlim Həftəsi keçiriləcək

Bu il 7–11 sentyabr tarixlərində Azərbaycanda növbəti Bakı İqlim Həftəsi keçiriləcək. Tədbir BMT İqlim Konvensiyasının mandatı çərçivəsində təşkil olunacaq. Bakı İqlim Həftəsində iqlim dəyişiklikləri, ətraf mühitin mühafizəsi və beynəlxalq ekoloji əməkdaşlıq məsələləri müzakirə ediləcək. Qeyd edək ki, Bakı İqlim Həftəsi ilk dəfə 2024-cü ildə keçirilib.

### Bakı–Tbilisi qatarına biletlər satışda

Bakı–Tbilisi–Bakı marşrutu üzrə bilet satışı başlayıb. Səfərlər komfort, komfort+ və lüks sinifli "Stadler" qatarları ilə həyata keçiriləcək. Bakı–Tbilisi istiqamətində birtərəfli bilet qiyməti 81 manatdan başlayır. Qatar Bakıdan saat 23:10-da yola düşərək səhər Tbilisiyə çatacaq.

### Minalardan təmizləmə davam edir

2020-ci ilin noyabrından bəri azad olunmuş ərazilərdə 270 min hektardan çox sahə minalardan təmizlənib. Bu müddətdə 250 mindən artıq mina və partlamamış hərbi sursat aşkarlanaraq zərərsizləşdirilib.

### Xocavənddə növbəti köç

Böyük Qayıdış çərçivəsində Xocavənd şəhərinə daha 17 ailə olmaqla 65 nəfər köçürülüb. Sakinlərə mənzillərinin açarları təqdim olunub. Bununla da Xocavəndə köçürülən ailələrin sayı 348-ə, sakinlərin sayı isə 1354 nəfərə çatıb.

### Ödənişli yolun tarifi bəlli oldu

Tarif (Qiymət) Şurası Əhmədbəyli–Füzuli–Şuşa avtomobil yolundan istifadəyə görə ödəniş məbləğlərini təsdiqləyib. Qərara əsasən, minik avtomobilləri üçün yolun tam istifadəsi 6,99 manat, avtobuslar üçün 5,77 manat, 3,5 tondan yuxarı yük avtomobilləri üçün isə 8,62 manat müəyyən edilib. Qoşqulu və yarımqoşqulu nəqliyyat vasitələri üçün ödəniş 14,39 manat olacaq.

### "mygov"da yeni nəqliyyat xidmətləri

Daxili İşlər Nazirliyinin nəqliyyat sahəsi üzrə bir sıra xidmətləri "mygov" platformasına inteqrasiya olunub. Artıq vətəndaşlar nəqliyyat vasitəsinin axtarışda və ya yüklü olub-olmaması barədə arayış, sürücülük vəsiqəsinin dəyişdirilməsi, nəqliyyat vasitəsinin zədələnməsinə dair arayış və texniki baxış məlumatlarını birbaşa platforma üzərindən əldə edə biləcəklər.

### Yeni agentlik şikayətlərə də baxacaq

Milli Kibertəhlükəsizlik Agentliyi (MKA) fərdi məlumatların qanunsuz toplanılması, işlənilməsi və mühafizəsinin təmin edilməməsi nəticəsində hüquqları pozulmuş subyektlərin şikayətlərinə baxacaq və onları araşdıracaq. Bu barədə Prezident İlham Əliyevin Fərmanı ilə yaradılan MKA-nın Nizamnaməsində qeyd olunub.

### Strateji dəmir yolu tam istismara verilib

Bakı–Tbilisi–Qars (BTQ) dəmir yolu xətti modernləşdirilmədən sonra tam istismara verilib. Mərasimdə Azərbaycan, Gürcüstan və Türkiyənin yüksəkvəzifəli rəsmiləri, həmçinin dəmir yolu və liman administrasiyalarının rəhbərləri iştirak edib.

### Erkən nikahların sayı azalıb

Azərbaycanda erkən nikahların sayı əvvəlki illərlə müqayisədə bir neçə dəfə azalıb. Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsindən bildirilib ki, bu statistika evliliyə müraciətlə bağlı qeydiyyat şöbələrindən və 18 yaşadək analar tərəfindən doğulan uşaqların sayına əsaslanır: "2022-ci ildə 18 yaşadək analar tərəfindən 2011 uşaq, 2023-cü ildə 1742, 2024-cü ildə isə 1279-a qədər azalıb".

# Yeni hakimlərlə görüş keçirilib

## Vətəndaşların hüquq və azadlıqlarının etibarlı müdafiəsi müzakirə olunub

Daxili İşlər Nazirliyində vəzifəyə yeni təyin olunmuş hakimlərlə görüş keçirilib.

Görüşdə hüquq-mühafizə və məhkəmə institutları arasında formalaşmış səmərəli əməkdaşlıq, qanunun aliliyinin təmin edilməsi, vətəndaşların hüquq və azadlıqlarının etibarlı müdafiəsi müzakirə olunub.

Qeyd olunub ki, bu təmaslar praktiki məsələlərlə bağlı hakimlərin məlumatlılığının artmasına, hüquq sisteminin daha da təkmilləşdirilməsinə töhfə verir.

Daxili İşlər Nazirliyinin fəaliyyət istiqamətləri, asayişin və təhlükəsizliyin mühafizəsi, cinayətkarlıqla mübarizədə görülən işlər diqqətə çatdırılıb.



# Bakı dünyaya örnək oldu

## Paytaxtımız dünya üçün təhlükəsiz şəhər modelidir

*(Əvvəli 1-ci səhifədə)*

Artıq ölkə xaricinə çıxmadan belə internet vasitəsilə dünyanın ən məşhur və turistik şəhərlərində ictimai yerlərdə cibgirlik, xırda oğurluq hallarının gündəlik hadisə kimi yaşandığını görmək olur. Bu şəhərlərdə narkotik satışının insan həyatlarını necə məhv etdiyinin şahidi oluruq. Bu gün insanların küçədə rahat hərəkət edə bilməsi, gecə saatlarında özünü təhlükəsiz hiss etməsi hər ölkə üçün adi hal sayılmır.

Bakı isə forum günlərində bunun mümkün olduğunu qonaqlara nümayiş etdirdi. Gecə saatlarında dəniz kənarında rahat gəzən turistlər, metrodan və digər ictimai nəqliyyatdan sərbəst istifadə edən qonaqlar, izdihamlı küçələrdə arxayın hərəkət edən tədbir iştirakçıları Bakının necə təhlükəsiz və əmin-aman şəhər olduğunu öz gözləri ilə gördülər. Minlərlə insanın iştirak etdiyi tədbir günlərində paytaxtda ciddi ictimai narahatlıq yaradan heç bir hadisə qeydə alınmadı. Bu isə Bakının ictimai asayiş və təhlükəsizlik baxımından necə hazırlıqlı şəhər olduğunu bir daha dünyaya göstərdi.

WUF13 Bakının beynəlxalq imicinə yeni çalar da əlavə etdi. Paytaxt memarlığı, inkişaf edən infrastrukturu və turizm potensialı ilə diqqət çəkirdisə, bu forum vasitəsilə təhlükəsizlik mövzusunda da öz nümunəsini ortaya qoydu. Forum çərçivəsində edilən çıxışlarda şəhərdə təhlükəsiz və dinc həyatla bağlı məsələlərin məhz Azərbaycanın paytaxtında müzakirə olunmasının təsadüfi olmadığı xüsusi vurğulandı.

Ümumiyyətlə, Azərbaycanın son illərdə beynəlxalq tədbirlər üçün seçilməsi ölkəmizdə sabitliyin və ictimai təhlükəsizliyin dövlət idarəçiliyində xüsusi diqqətdə saxlanılmasının nəticəsidir. WUF13 şəhərsalma ilə bağlı forum olduğuna görə Qarabağda və Şərqi Zəngəzurda yenidən qurulan şəhərlərdə təhlükəsizliyin təmin olunması məsələsinə də toxunmalıyıq. Bu ərazilərdə həyatın yenidən canlanması məhz təhlükəsizliklə bağlıdır. Torpaqların minalardan təmizlənməsindən başlayaraq, müharibə dövründən qalan silah-sursatın aşkarlanıb götürülməsinə, yenidən inşa edilən şəhərlərdə piyadaların təhlükəsiz hərəkətinin təmin olunmasına qədər bütün nüanslar nəzərə alınır.

Azad edilmiş ərazilər artıq ölkənin ümumi təhlükəsizlik çətiri altındadır. Elə buna görə beynəlxalq tədbirlərə artıq Xankəndi də ev sahibliyi edə bilir.

Bu yaxınlarda başa çatan Bakı–Xankəndi velosiped yarışı da əslində ölkə üzrə təhlükəsizlik trayektoriyasını simvolizə edirdi. Yəni bir vaxtlar qan və müharibə ilə xatırlanan torpaqlara qədər bu gün təhlükəsizlik təmin olunub. Dünyaya örnək göstərilən bu sabitlik və əmin-amanlıq mühiti artıq Bakıdan Xankəndiyədək uzanır!

# DNT-nin izi ilə...

## Kriminalistik laboratoriyada cinayətlərin sirri genetik izlərlə açılır





*(Əvvəli ötən nömrəmizdə)*

Kriminalistik Tədqiqatlar İdarəsinin fəaliyyəti barədə ətraflı məlumat verən polis kapitanı İsmayıl Əmirli bizi Fiziki-Kimyəvi Tədqiqatlar şöbəsinə qədər müşayiət edib şöbə rəisinə təqdim etdi. Bundan sonrakı müsahibimiz həkimlər kimi ağ xalat geyinmiş şöbə rəisi polis polkovnik-leytenantı Gündüz Cəbrayıllı olacaqdı. Şöbə rəisi ilə söhbətimizə birbaşa mətləbə keçməklə başladıq: cinayətlərin üstünün açılmasında "ağ xalatlı" polislərin işi konkret nədən ibarətdir?

### "Bioloji izlər, DNT analizləri bizim işimizdir"

O qeyd etdi ki, şöbənin işi cinayət törədilərkən hadisə yerlərində qalmış bioloji izlərin, yəni DNT daşıya bilən bioloji tədqiqat obyektlərinin toplanıb onlara göndərilməsindən sonra başlayır. Qısacası, həmin obyektlərin üzərində DNT profilinin əldə olunması, məlumat bankına əlavə edilməsi və eyniləşmə aparıldıqdan sonra müvafiq cavabın təqdim edilməsi həyata keçirilir: "Hadisə yerində kriminalist-inspektorlar məlumatları toplayıb analiz və tədqiqat üçün bizə göndərirlər. Onlar sadəcə nümunənin steril qaydada götürülməsini və bizə çatdırılmasını təmin edirlər. Sonrası bizim işimizdir".

Müsahibimiz cinayətkarın hər hansı hadisədə bioloji iz buraxmasının bir neçə amildən asılı olduğunu bildirir. Məsələn, barmaq izi haqqında məlumatı olan cinayətkar əlcək geyinə və yaxud kamera barədə məlumatı olan şəxs papaqla cinayət törətməyə yollana bilər. Əməli törədəndən sonra artıq həmin əlcək, papaq və ya hər hansı vasitə cinayət predmeti hesab olunur. "Həmin vasitələr kriminalistlər üçün tədqiqat obyektidir", - deyə şöbə rəisi bildirir.

### Cinayətkar bioloji izlərini gizlədə bilərmi?

Müsahibimiz on beş illik təcrübəsinə əsaslanaraq deyir ki, kriminalistik analizlər və tədqiqatlar hər il inkişaf edir, yeniliklər ortaya çıxır. Bu sahə elmi bilik, təcrübə mübadiləsi və davamlı təkmilləşmə tələb edir. Elə bu şöbənin əməkdaşları da beynəlxalq təcrübənin öyrənilməsi üçün müxtəlif ölkələrdə təlim və seminarlara qatılırlar.

Onun sözlərinə görə, müasir dövrdə cinayətkar hansı izlərin onu ifşa edəcəyini əvvəlcədən təxmin edə bilmir. Əgər ağlına gəlsəydi, o izi hadisə yerində qoymazdı. Yəni cinayətkarın heç bir iz buraxmamaq ehtimalı çox azdır. Şöbə rəisi əlavə edir ki, "cinayətkarlar o qədər savadlı və intellektual olmurlar ki, DNT-nin nə olduğunu tam bilsinlər".

Müsahibimiz danışır ki, bir neçə il bundan əvvəl Xəzər rayonunda bir nəfər evə daxil olaraq qadını və kişini öldürmüşdü. Onların övladı da ölümcül vəziyyətdə yaralanmışdı. Şübhəli şəxs əlcəkdən istifadə etdiyi üçün barmaq izi qoymamışdı. Ancaq ərazidən tapılan əlcəyin həmin cinayətdə istifadə olunduğu kriminalistik analizlərlə sübut edildi. Nəticədə əlcəyin sahibi, yəni cinayətkar zərərçəkənlərin yaxın qohumlarından biri çıxdı.

### "Otuz il də keçsə, maddi sübutlardan DNT profili əldə edə bilirik"

Şöbənin əməkdaşları on beş, iyirmi, hətta otuz il əvvəl götürülmüş və düzgün şəraitdə qablaşdırılmış maddi sübutlardan DNT profili əldə edə bilirlər. Hazırda bununla bağlı sorğular da icra olunur.

Bundan başqa, naməlum meyitlərin şəxsiyyətinin müəyyənləşdirilməsi də burada aparılır: "Tanınmaz halda olan, yəni barmaq izi yaxud üz tanıma ilə təyin oluna bilməyən elə meyitlər olur ki, onların DNT profili vasitəsilə və ya itkin düşmüş şəxslərin qohumlarının genetik məlumatları ilə uyğunlaşdırma aparıb cavab veririk".

Müsahibimizdən soruşuruq ki, necə olur bəzi cinayətlərin üstü 10 il, 20 il əvvəl açılmayıb, amma indi açılır. Həmin dövrdə genetik analizlərin kifayət qədər inkişaf etməməsi səbəb olub buna, yoxsa araşdırmanın düzgün aparılmaması?

Şöbə rəisi bunu kriminalistik inkişaf səviyyəsi ilə əsaslandırır. Onun sözlərinə görə, genetik analizlər son dövrlərdə ciddi inkişaf edib. Ümumiyyətlə, dünyada bu sahədə tədqiqatların vaxtilə hansı səviyyədə olduğunu da nəzərə almaq lazımdır: "Müvafiq qanunvericilik bazasında edilən dəyişikliklər nəticəsində DNT profili bazası zənginləşdiyinə görə hazırda müqayisəli tədqiqat aparmaq daha asandır. Elmi-texniki tərəqqi cinayətlərin üstünün açılmasına əlavə imkanlar yaradıb".

*(Ardı növbəti sayımızda)*

***R.Mehtiyev***

# Vətən qəhrəmanları ilə Vətən olur

## Şuşanın yaxınlığında şəhidlik zirvəsi



**Vətən müharibəsi və sonrakı antiterror tədbirləri nəticəsində qazanılan hərbi zəfər Azərbaycanda separatizmə son qoydu. Yüzilliklər ərzində formalaşan məkirli plan tarixə gömüldü. Bu böyük Zəfərin qazanılmasında Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının öz qəhrəmanlıq salnaməsi var. Əsgər Surxayzadə Cahangir Hətəm oğlunun şəhadəti də bu salnamədə yer alır.**

Cahangir 1996-cı ildə Tərtər rayonunun Qaynaq kəndində doğulub. Bu kənd Birinci Qarabağ müharibəsindən sonra uzun illər düşmənlə təmas xəttinin yaxınlığında yerləşib və davamlı olaraq atəşə tutulub. Yerli sakinlər müharibə reallığının hər üzünü öz həyatlarında görüblər. Ancaq onlar düşmən önündə məğrur dayanaraq öz yurdlarını tərk etməyiblər.

2014-cü ilin iyul ayında Dövlət Sərhəd Xidmətinin sıralarına müddətli həqiqi hərbi xidmətə çağırılan Cahangir Cəlilabad rayonunun Göytəpə şəhərindəki "N" saylı hərbi hissədə hərbi and içib. Sonra Yardımlı rayonunda yerləşən "N" saylı hərbi hissədə xidmət keçərək cənub sərhədimizin keşiyində ayıq-sayıq dayanıb. Sərhədçi kimi hərbi xidmət borcunu yerinə yetirdikdən sonra 2016-cı ildə öz arzusu ilə DİN-in Daxili Qoşunlarının tərkibinə müddətdən artıq həqiqi hərbi xidmətə qəbul olunub. "N" saylı hərbi hissədə xüsusi vasitələrin tətbiqi dəstəsinin xüsusi vasitələrin tətbiqi qrupunun atıcı-meteomüşahidəçisi vəzifəsinə təyin edilib.

Vətən müharibəsi zamanı bu hərbi hissənin xüsusi vasitələrin tətbiqi dəstəsinin şəxsi heyətindən üç nəfər şəhidlik zirvəsinə ucalıb. Cahangir onlardan biridir.

Dəstənin hərbi qulluqçuları 2020-ci il sentyabrın 27-dən oktyabrın 15-dək "N" saylı hərbi hissədə yerləşiblər, orada döyüş tapşırıqlarının icrasına hazırlaşıblar. Bundan əlavə, Ağdam rayonunun ərazisində komendant xidmətinə çıxıblar. Oktyabrın 15-dən etibarən Füzuli rayonunun ərazisinə göndərilərək döyüş tapşırıqlarının icrasına başlayıblar. Həmin vaxt ön cəbhənin bütün istiqamətlərində şiddətli döyüşlər gedirdi. Müdafiə Nazirliyinin tabeliyindəki Xüsusi Təyinatlı Qüvvələrin şəxsi heyəti ilə birlikdə Daxili Qoşunların hərbi qulluqçuları da döyüş əməliyyatlarına qatılıblar.

Əsgər C.Surxayzadə silahdaşları ilə birgə Füzuli, Xocavənd, Xocalı rayonlarının ərazilərində və Şuşa şəhərinin ətrafında döyüş yolu keçib. Göstərilən istiqamətlərdə torpaqlarımızın azad edilməsi və müdafiəsi, işğalçıların diversiya-kəşfiyyat qruplarının əraziyə sızmasının qarşısının alınması, azad edilən yaşayış məntəqələrində gizlənmiş erməni hərbçilərinin zərərsizləşdirilməsi, düşmənin tərk etdiyi silah-sursatın, texnikasının axtarılaraq qənimət götürülməsi, o cümlədən digər döyüş tapşırıqları qarşıya qoyulub. Bu döyüş tapşırıqlarının yerinə yetirilməsində Cahangir də iştirak edib.

Noyabrın 9-da Şuşa şəhərinin yaxınlığında düşmən artilleriyasının atəşi nəticəsində Cahangir mərmi qəlpələrindən ağır yaralanaraq şəhadətə yüksəlib.

Silahdaşları deyir ki, Cahangir ön cəbhəyə ruh yüksəkliyi ilə gedib. Azad olunmuş Şuşanı, Xocalını, Ağdərəni görməyi arzulayıb. Ailə üzvlərinə ön cəbhədən etdiyi telefon zənglərində nikbin ovqatla danışıb, qələbə müjdəsini ondan gözləyiblər. Müharibənin sonuncu günü Şuşaya göndərilən döyüşçünün şəhərə çatmasına çox az məsafə qalarkən bir neçə metrliyində mərmi partlayıb...

Azərbaycan Prezidentinin 15, 25, 29 dekabr 2020-ci il tarixli müvafiq sərəncamları ilə əsgər C.Surxayzadə ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilib.

*Yalçın Abbasov*

# "Yol Polisimizlə bir gün"

## Şəhid övladlarının iştirakı ilə tədbir keçirilib



1 İyun – Uşaqların Beynəlxalq Müdafiəsi Günü ilə əlaqədar Bakı şəhər BPİ DYP İdarəsinin təşəbbüsü və "YAŞAT" Fondunun dəstəyi ilə şəhid övladları üçün ekskursiya və maarifləndirici görüş təşkil edilib.

Uşaqlar və yeniyetmələr arasında yol hərəkəti təhlükəsizliyinin təbliği məqsədilə həyata keçirilən görüş çərçivəsində tədbir iştirakçıları Bakı şəhər BPİ DYP İdarəsinin və Nəqliyyatı İntellektual İdarəetmə Mərkəzinin inzibati binalarına ekskursiya ediblər.

Məktəblilərə yol-patrul xidməti inspektorlarının xidməti fəaliyyəti, yol hərəkət iştirakçılarının rahat, fasiləsiz və təhlükəsiz hərəkəti üçün görülən tədbirlər, eləcə də inzibati hüquqpozmalar barədə nəzəri məlumatlar verilib, xüsusi texniki vasitələr nümayiş etdirilib.

Bununla yanaşı, şagirdlərə nəqliyyatın intellektual idarə edilməsi sistemi, yol hərəkətinin tənzimlənməsi və müasir texnologiyaların tətbiqi haqqında ətraflı məlumatlar verilib. Məktəblilər real vaxt rejimində yollardakı vəziyyətin necə izlənildiyini və yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi üçün istifadə olunan innovativ həlləri maraqla izləyiblər.

Sonda tədbir iştirakçılarına xatirə hədiyyələri təqdim olunub.

# Kiberhücumlardan necə qorunaq?

## Şəxsi məlumatları paylaşmaq ciddi risklərə səbəb olur

*(Əvvəli 1-ci səhifədə)*

Halbuki kibercinayətkarlar üçün əsas məsələ ilk növbədə məbləğ deyil, məlumatların ələ keçirməkdir. Elə buna görə də şəxsi və maliyyə məlumatlarının qorunması hər kəs üçün vacibdir. Bank kartının nömrəsi, CVV kodu və ya SMS təsdiq şifrəsinin üçüncü şəxslərin əlinə keçməsi hesab üzərində nəzarətin tamamilə itirilməsi ilə nəticələnə bilər. Dələduzlar çox vaxt özlərini bank əməkdaşı, çatdırılma xidməti və ya digər adlar altında təqdim edərək insanlardan kart məlumatlarını əldə etməyə çalışırlar. Bəzən insanlara "kartınız bloklanıb", "hesabınız təhlükə altındadır" və ya "uduş qazanmısınız" məzmunlu mesajlar göndərilir. Daha sonra isə link təqdim olunur və şəxsi məlumatların daxil edilməsi tələb edilir. Əslində isə həmin sayt saxta olur və daxil edilən məlumatlar birbaşa kiberdələduzların əlinə keçir. Halbuki bank əməkdaşları heç vaxt telefonla və ya mesaj vasitəsilə kartın tam məlumatını, CVV kodunu və ya SMS təsdiq şifrəsini tələb etmirlər.

### Hansı təhlükəsizlik tədbirləri görülməlidir?

Kiberhücumlardan qorunmaq üçün ilk növbədə etibarlı və mürəkkəb şifrələrdən istifadə olunmalıdır. Sadə və asan təxmin edilən şifrələr hesabların ələ keçirilməsini asanlaşdırır. Şifrə yaradarkən böyük və kiçik hərflərdən, rəqəmlərdən və xüsusi simvollardan istifadə etmək, eyni şifrəni müxtəlif hesablarda təkrar tətbiq etməmək tövsiyə olunur. Çünki bir hesab sındırıldıqda, eyni şifrədən istifadə etdiyiniz digər hesablar da risk altına düşür.

Bundan əlavə, iki mərhələli təsdiqləmə funksiyasını aktivləşdirmək tövsiyə olunur. Bu təhlükəsizlik sistemi hesaba giriş zamanı əlavə təsdiq mərhələsi yaradır. Yəni şifrə daxil edildikdən sonra istifadəçidən ikinci təsdiq addımı tələb olunur. Beləliklə, şifrə ələ keçirilsə belə kibercinayətkarların hesaba giriş imkanı xeyli məhdudlaşır. Xüsusilə bank tətbiqlərində, elektron poçt və sosial media hesablarında bu funksiya aktiv olmalıdır. Həmçinin şübhəli linklərə qarşı diqqətli olmaq vacibdir.

İnternetdə ən çox rast gələnən təhlükələrdən biri də saxta linklərdir. Linkin görünüşü məşhur bank və ya platformaya bənzəyə bilər, amma kiçik bir fərq belə sizi təhlükəli sayta yönləndirə bilər. Linkə daxil olmamışdan əvvəl saytın ünvanını yoxlamaq və naməlum mənbələrdən gələn mesajlara ehtiyatla yanaşmaq lazımdır.

Digər vacib məsələ isə sosial mediada həddindən artıq şəxsi məlumatların paylaşılmasıdır. Bir çox insan fərqində olmadan şəxsi məlumatlarını sosial şəbəkələrdə açıq şəkildə paylaşır. Doğum tarixi, telefon nömrəsi, yerləşmə məlumatı və ailə üzvləri barədə detallı paylaşımlar




fırıldaqçılar üçün əlavə məlumat mənbəyinə çevrilir. Kibertəhlükəsizlik təkcə texnologiya ilə bağlı anlayış deyil, həm də istifadəçilərin diqqətli və məsuliyyətli davranışını tələb edən mühüm amildir. Kiberhücumların qarşısını tam şəkildə almaq mümkün olmasa da, təhlükəsizlik tədbirlərinə əməl etməklə bu riskləri minimuma endirmək olar.

*F.Məmmədova*

# Onlayn qumar tələsi

## Kiberpolisdən növbəti uğurlu əməliyyat

Son illər qanunsuz onlayn kazino və qumar oyunlarının qlobal internet məkanında geniş miqyasda yayılması halları müşahidə olunur. Sosial şəbəkələrdə "asan qazanc", "bonus", "pulsuz balans" kimi vədlərlə təqdim olunan bu platformalar minlərlə insanı qanunsuz əməllərə sövq edir.

Xüsusilə sosial media vasitəsilə yayılan reklamlar təhlükənin miqyasını daha da artırır. Nəticə isə əksər hallarda maddi ziyan, psixoloji asılılıq və törədilən bu qanunsuz əmələ görə azadlığın məhdudlaşdırılması ilə yekunlaşır.

Bir çox ölkələrdə hüquq-mühafizə orqanları artıq qanunsuz onlayn kazino şəbəkələrinə qarşı mübarizəni gücləndirib. Bu məqsədlə kibermonitorinq sistemləri təkmilləşdirilib, maliyyə əməliyyatlarına nəzarət artırılıb. Azərbaycanda isə qeyri-qanuni onlayn qumar və kazino oyunlarına qarşı mübarizə Daxili İşlər Nazirliyinin Kibercinayətkarlıqla Mübarizə Baş İdarəsi tərəfindən aparılır. Kiberpolisin bu məqsədlə keçirdiyi sonuncu tədbirlərlə qeyd olunan cinayət əməllərində təqsirli bilinən daha 4 nəfər - S.Səfərov, F.Məmmədov, R.Heydərli və N.Soltanov saxlanılıb. Araşdırmalarla müəyyən edilib ki, həmin şəxslər ölkə hüdudlarından kənarda yaradılan onlayn kazino saytlarının Azərbaycan seqmenti üzrə admin panelini idarə ediblər. Bu isə həmin şəxslərə ölkə ərazisində kazino oyunlarını təşkil etməyə imkan yaradıb. Saxlanılan şəxslərin yaşadıqları ünvanlara baxış zamanı elektron sübutlar, qanunsuz kazino oyunlarında istifadə olunan 200-dən artıq bank kartları, mobil nömrələr və s. aşkarlanaraq maddi sübut kimi götürülüb. Qeyd olunan şəxslərə Baş İdarədə ittiham elan edilib və onlar cinayət məsuliyyətinə cəlb olunublar. Məhkəmənin qərarı ilə S.Səfərov və F.Məmmədov barəsində həbs qətimkan tədbiri seçilib. Saxlanılan digər iki şəxslə bağlı başlanan cinayət işi üzrə müvafiq istintaq hərəkətləri davam etdirilir.

# Oğruların ifşası

## Polis qarətçiləri saxlayıb

Paytaxtın Binəqədi rayonunda evlərdən birindən 6000 ABŞ dolları nağd pul naməlum şəraitdə oğurlanıb. Polis əməkdaşları tərəfindən keçirilən tədbirlərlə əməli törətməkdə şübhəli bilinən 51 yaşlı G.İsgəndərov müəyyən edilərək saxlanılıb. Araşdırmalarla onun taladığı evdə bir müddət usta kimi çalışdığı da məlum olub.

Rayon ərazisində keçirilən digər tədbirlər nəticəsində isə iki marketdən spirtli içki, tütün məmulatı və digər məhsulları oğurlamaqda şübhəli bilinən 48 yaşlı R.Hüseynov və 21 yaşlı A.Abbaslı da polis əməkdaşları tərəfindən saxlanılıblar.

Faktlarla bağlı cinayət işi başlanılıb, araşdırmalar davam etdirilir.

# Narkotik tacirləri tutulub

## Külli miqdarda narkotik vasitə qanunsuz dövriyyədən çıxarılıb

Abşeron Rayon Polis İdarəsinin əməkdaşları tərəfindən həyata keçirilən əməliyyatlar zamanı 19 kiloqram narkotik vasitə və psixotrop maddənin qanunsuz dövriyyəyə buraxılmasının qarşısı alınıb. Əməliyyat nəticəsində qeyd edilən cinayət əməlində şübhəli bilinən, ölkələrarası yükdaşıma fəaliyyəti ilə məşğul olan 47 yaşlı E.Əhmədov saxlanılıb. Onun idarə etdiyi iritonnajlı yük maşınından 8 kiloqram heroin və 3 kiloqramdan çox psixotrop maddə metamfetamin aşkarlanıb. Araşdırmalarla müəyyən edilib ki, E.Əhmədov aşkar olunmuş narkotik vasitələri şəxsiyyəti araşdırılan İran vətəndaşından əldə edərək qaçaqmalçılıq yolu ilə ölkə ərazisinə gətirib. Saxlanılan şəxsin daxil olduğu narkoşəbəkənin digər üzvlərinin müəyyənləşdirilməsi istiqamətində tədbirlər davam etdirilir.

İdarə əməkdaşları tərəfindən həyata keçirilən digər əməliyyatlar zamanı narkotik vasitələrin qanunsuz dövriyyəsini təşkil etməkdə şübhəli bilinən daha iki nəfər - 44 yaşlı R.Həsənov və 38 yaşlı İ.Cümşüdoğlu saxlanılıb. Onlardan ümumilikdə 8 kiloqrama yaxın narkotik vasitə aşkarlanıb. Bu şəxslər narkotikləri Bakı şəhəri və Abşeron rayonu ərazisində satmaq məqsədilə əldə etdiklərini bildiriblər.

Faktlarla bağlı cinayət işləri başlanılıb, araşdırmalar aparılır. Əməliyyat-profilaktik tədbirlər davam etdirilir.

# Maskalı quldur

## Gizlənsə də məsuliyyətdən yayına bilmədi

Lənkəran rayonunda yerləşən otellərin birində çalışan iki qadına naməlum şəxs kəsici alətlə xəsarət yetirərək zərərçəkənlərin qızıl-zinət əşyalarını ələ keçirib. Polis əməkdaşlarının həyata keçirdikləri tədbirlərlə əməli törətməkdə şübhəli bilinən həmin otelin inzibatçısı 49 yaşlı X.Cahangirov müəyyən edilərək saxlanılıb. Araşdırmalarla məlum olub ki, X.Cahangirov tanınmaması üçün əvvəlcədən iş yerində gizlətdiyi maska və geyimlə kamuflaj olaraq həmin hadisəni törədib.

Faktla bağlı cinayət işi başlanılıb, saxlanılan şəxs barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

# Barmaq izi olmayanlar...

## Onlar nadir rast gəlinən genetik xüsusiyyət daşıyıcılarıdır

**Hər insanın barmaq izi fərqli hesab olunur. Lakin bəzi insanlar elə doğulur ki, onların barmaqlarında ümumiyyətlə heç bir iz olmur.**

Barmaq izi uzun illərdir ki, insanın kimliyini müəyyənləşdirmək üçün ən etibarlı üsullardan biri sayılır. Telefonların kilidindən sərhəd keçidlərinə, cinayət araşdırmalarından bank sistemlərinə qədər bir çox sahədə məhz bu unikal xətlərdən istifadə edilir. Çünki insan barmağının ucundakı xırda naxış və xətlərin hər kəsdə fərqli olduğu qəbul olunur. Buna görə də əksər insanlar barmaq izinin dəyişməyən və hər kəsdə mövcud olan xüsusiyyət olduğunu düşünür. Halbuki dünyada çox nadir rast gəlinən hallar da var. Bəzi insanlar barmaq izi olmadan doğulur.

### Barmaq izi əslində nədir?

Barmaq izləri insanın əl və ayaq barmaqlarının uc hissəsində yerləşən xırda çıxıntı və xətlərdən ibarətdir. Bu naxışlar ana bətnində formalaşır və ömür boyu əsasən dəyişməz qalır. Maraqlıdır ki, hətta əkiz insanların belə barmaq izləri eyni olmur. Alimlərin fikrincə, bu xətlər yalnız şəxsiyyəti müəyyənləşdirmək üçün deyil, həm də insanın əşyaları daha rahat tutmasına və toxunuşu daha həssas hiss etməsinə kömək edir. Məhz həmin çıxıntılar hamar səthlərdə barmaqların sürüşməsinin qarşısını müəyyən qədər alır.

### Elə insanlar var ki, barmaqlarında heç bir iz görünmür

Dünyada çox az sayda insanda rast gəlinən adermatoglifia adlı genetik xüsusiyyət nəticəsində barmaq səthində həmin məşhur xətlər formalaşmır. Belə insanların əllərinə adi gözlə baxdıqda hər şey normal görünür. Lakin diqqətlə və ya xüsusi cihazlarla yoxlama apardıqda məlum olur ki, barmaq ucunda heç bir iz yoxdur. Bu vəziyyət ilk dəfə xüsusilə hava limanlarında diqqət çəkməyə başlayıb. Biometrik sistemlər həmin şəxslərin barmaq izini oxuya




bilmədiyi üçün cihazlar onları tanımayıb. Nəticədə bəzi insanlar uzunmüddətli və əlavə yoxlamalardan keçməli olub.

### Barmaq izi həmişə qalırmı?

Əksər insanlarda barmaq izi ömür boyu dəyişməz qalır. Ancaq bəzi hallarda həmin xətlər zəifləyə və ya tamamilə silinə bilər. Ağır yanıqlar, kimyəvi maddələrlə uzunmüddətli təmas, bəzi dəri xəstəlikləri və yaşlanma prosesi buna səbəb ola bilər. Maraqlı məqamlardan biri də budur ki, tarixdə bəzi cinayətkarlar izlərini gizlətmək üçün barmaqlarını yandırmağa və ya cərrahi müdaxilə etdirməyə çalışıblar. Lakin çox vaxt bu cəhdlər nəticəsiz qalıb. Çünki müasir texnologiyalar artıq yalnız barmaq izinə deyil, insanın DNT-sinə, üz quruluşuna, göz tor qişasına və digər biometrik məlumatlara da əsaslanır.

### Gələcəyin təhlükəsizlik sistemləri necə olacaq?

Mütəxəssislərin fikrincə, yaxın illərdə təhlükəsizlik sistemləri daha fərqli üsullarla işləyəcək. Artıq bəzi texnologiyalar insanın səsini, yerimə tərzini, üz mimikasını və hətta telefondan istifadə vərdişlərini belə tanıya bilir. Bu səbəbdən bir vaxtlar əsas identifikasiya vasitəsi hesab edilən barmaq izi artıq yeganə üsul sayılmır. Çünki dünyada elə insanlar yaşayır ki, onların əllərində ümumiyyətlə heç bir iz yoxdur.

*Aytən Tahirova*

# Dünyanın "xəyalət şəhərləri"

## Vaxtilə həyatın qaynadığı məkanlar



Dünyanın müxtəlif yerlərində elə yaşayış məntəqələri var ki, illər əvvəl cinayət, silahlı qarşıdurmalar, narkotik şəbəkələri və digər səbəblərdən sakinlər oranı tərk etməyə məcbur olublar. Vaxtilə minlərlə insanın yaşadığı həmin şəhərlər indi "xəyalət şəhər" kimi tanınır. Boş küçələr, sınıq pəncərələr, paslanmış avtomobillər və toz basmış evlər həmin məkanların keçmişindən xəbər verir.

XIX əsrdə ABŞ-ın qərb bölgəsində yerləşən bəzi şəhərlər cinayət hadisələri ilə məşhur idi. Xüsusilə Bodi və Tombstoun kimi yaşayış məntəqələri quldur dəstələrinin, qanunsuz qumar məkanlarının və silahlı qarşıdurmaların baş verdiyi yerlər kimi tanınırdı. Mədənlərdən gələn böyük pullar bu şəhərlərə həm sərvət, həm də təhlükə gətirmişdi. İnsanlar qızıl və gümüş axtarışı üçün bölgəyə axışırdı. Pul artdıqca soyğunçuluq, silahlı mübahisələr və cinayət hadisələri də çoxalırdı. Küçələrdə baş verən atışmalar səbəbindən bəzi şəhərlərdə gecələr küçəyə çıxmaq təhlükəli hesab olunurdu. Sonralar mədənlərin bağlanması ilə insanlar bölgələri tərk etməyə başladı. Şəhərlər yavaş-yavaş boşaldı. Bu gün Kaliforniya ştatının Bodi şəhərində köhnə kilsə, məktəb binası, bar, ticarət köşkü və səssiz küçələr hələ də qalır.

### Narkokartellərin kölgəsində qalan yaşayış məntəqələri

Meksikada bəzi kənd və qəsəbələr uzun illər narkokartellərin nəzarəti altında qalıb. Xüsusilə Siudad-Xuares yaxınlığındakı bəzi yaşayış əraziləri və Mier kimi şəhərlər silahlı toqquşmalar səbəbindən boşalan məntəqələr sırasında göstərilir.

Bir çox ailə təhlükəsizlik məqsədilə evlərini tərk edərək başqa şəhərlərə köçməli olub. Hazırda həmin yerlərdə istifadəsiz məktəblər, qapıları açıq qalan evlər və dağıdılmış mağazalar görünür. Bəzi küçələrdə isə illərlə insan yaşamadığı hiss olunur. Ot basmış yollar, divarlardan çıxan ağac budaqları və səssiz məhəllələr bu yerlərə qəribə görünüş verir.

### Dünyanın ən məşhur tərk edilmiş şəhəri

"Xəyalət şəhər" deyiləndə bir çox insanın ağlına ilk gələn yerlərdən biri də Ukraynanın Pripyat şəhəri olur. Bu şəhər 1986-cı ildə baş verən Çernobıl faciəsindən sonra boşaldılıb. Vaxtilə minlərlə insanın yaşadığı Pripyat bir neçə gün ərzində tamamilə boş qalıb. Bu gün həmin şəhərdə tərk edilmiş boş məktəblər, paslanmış attraksionlar və yarımçıq qalmış həyatın izləri görünür. Pripyat hazırda dünyanın ən məşhur tərk edilmiş şəhərlərindən biri hesab olunur və sənədli filmlərdə tez-tez göstərilir. Bir çox insan üçün belə şəhərləri görmək qorxulu olsa da, bəzi turistlər məhz həmin səssiz atmosferə görə bu yerlərə maraq göstərirlər. Bəzi səyahətçilər bu məkanları "keçmişin donmuş görüntüsü" adlandırır.

*Aytən Tahirova*

# Xəbərsiz itkin düşənlərdən xəbər var

## Artıq onların tapılmasında süni intellektdən istifadə edilir

Hər il dünyada minlərlə insan müxtəlif səbəblərdən itkin düşür. Onların arasında azyaşlı uşaqlar, yaşlı insanlar, turistlər və psixoloji problemlər yaşayan şəxslər də olur. Əvvəlki illərdə belə insanların tapılması əsasən şahid ifadələri, elanlar və uzunmüddətli axtarışlar vasitəsilə həyata keçirilirdi. Müasir dövrdə isə süni intellekt texnologiyaları bu prosesə tamamilə yeni imkanlar qazandırıb. Artıq bir çox ölkələrdə təhlükəsizlik qurumları itkin şəxslərin axtarışında ağıllı sistemlərdən istifadə edir. Süni intellekt böyük məlumat bazalarını çox qısa müddətdə analiz edə bilir. Sosial şəbəkələrdə yayılan görüntülər, müşahidə kameralarının qeydləri və mobil cihazlardan əldə olunan məlumatlar xüsusi proqramlar vasitəsilə araşdırılır. Bu texnologiyalar bəzən insan gözünün diqqət etmədiyi detalları belə müəyyənləşdirə bilir.

Ən geniş istifadə olunan üsullardan biri üz tanıma sistemləridir. Kamera görüntülərindəki simalar xüsusi alqoritmlərlə müqayisə edilir və itkin düşən şəxslərlə uyğunluq yoxlanılır. Bu sistemlər hava limanlarında, metro stansiyalarında, ticarət mərkəzlərində və izdihamlı küçələrdə tətbiq olunur.

Süni intellekt itkin uşaqların tapılmasında xüsusilə effektiv nəticə göstərib. Təhlükəsizlik kameralarından əldə olunan görüntülər saniyələr ərzində analiz edilir və uşağın son göründüyü istiqamət müəyyənləşdirilir. Bu isə axtarış vaxtını əhəmiyyətli dərəcədə azaldır.

Maraqlıdır ki, kompyuter proqramları insanların davranışlarını da analiz edə bilir. Süni intellekt şəxsin əvvəlki hərəkətlərini, istifadə etdiyi marşrutları və gündəlik vərdişlərini nəzərə alaraq onun hansı istiqamətdə ola biləcəyini ehtimal edir. Texnologiyanın imkanları artdıqca məlumat təhlükəsizliyi məsələləri də diqqət mərkəzində qalır. Çünki şəxsi məlumatların qorunması və sistemlərdən düzgün istifadə mühüm əhəmiyyət daşıyır.

# Əməkdaşların nəzərinə!

## Doktoranturaya qəbul elan edilir

DİN-in Polis Akademiyası Azərbaycan Respublikası Nazirlər Kabinetinin 14 may 2026-cı il tarixli 320s nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin, elmi müəssisə və təşkilatlarının 2026-cı il üçün doktorant hazırlığı üzrə qəbul planları"na və Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Kollegiyasının 2021-ci il 26 noyabr tarixli Q17-001-21 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Polis Akademiyasına daxili işlər orqanları əməkdaşlarının qəbulu Qaydası"na əsasən 2026-cı il üçün fəlsəfə doktoru hazırlığı üzrə doktoranturaya aşağıda göstərilən ixtisaslar üzrə qəbul elan edir:

"Cinayət hüququ, kriminologiya, cəza-icra hüququ" ixtisası üzrə doktoranturaya büdcə hesabına, qiyabi – 3 yer;

"Cinayət prosesi, kriminalistika və məhkəmə ekspertizası, əməliyyat-axtarış fəaliyyəti" ixtisası üzrə doktoranturaya büdcə hesabına, qiyabi – 3 yer.

**Daha ətraflı məlumatı DİN-in Baş Kadrlar İdarəsinin (012) 590-97-76, 17-76 (daxili), DİN-in Polis Akademiyasının 8880 qaynar xətt, (012) 454-34-57, 554-99-84 nömrəli telefonları vasitəsilə və ya https://www.pa.edu.az/ internet saytından əldə edə bilərsiniz.**

# Polis əməkdaşlarının çempionatına yekun vurulub

## Qalib komandalar bəllidir



Polis əməkdaşları arasında Ümummilli lider Heydər Əliyevin anadan olmasının 103-cü ildönümünə həsr olunan əlbəyaxa döyüş və silahsız özünümüdafiə üzrə respublika çempionatına yekun vurulub. Yarışda müxtəlif rayon və şəhər polis orqanlarının əməkdaşlarından ibarət 14 komanda iştirak edib.

Qeyd edək ki, mayın 1-dən etibarən bölgələrdə zona yarışlarına start verilmiş çempionatda ümumilikdə 10 minə yaxın polis əməkdaşı iştirak edib. Yarışın yekun nəticələrinə əsasən DİN Əlahiddə Çevik Polis Alayı birinci yerə layiq görülüb. Bakı şəhər Baş Polis İdarəsinin komandası ikinci, Zəngilan Rayon Polis Şöbəsinin komandası isə üçüncü yeri tutub.

Qalib komandalara kubok və medallar təqdim olunub.

# "Mükafat tələsi" əməliyyatı

## Polis yüzlərlə axtarılan şəxsi necə saxlayıb?

ABŞ-ın Arizona ştatında polis tərəfindən həyata keçirilən qeyri-adi əməliyyat hüquq mühafizə orqanlarının tarixində ən maraqlı tələlərdən biri kimi yadda qalıb. Ştat polis barəsində həbs qərarı olan yüzlərlə şəxsə məktublar göndərərək onların pulsuz DVD pleyer qazandığını bildirib.

Məktublarda qeyd olunurdu ki, qaliblər mükafatlarını almaq üçün müəyyən tarixdə göstərilən ünvana gəlməlidirlər. Təklif o qədər inandırıcı hazırlanıb ki, çox sayda axtarılan şəxs hədiyyəsini almaq ümidi ilə həmin məkana üz tutub.

Əslində isə bu, polis tərəfindən hazırlanmış xüsusi əməliyyat idi. Tədbir məkanına gələn şəxslər qeydiyyatdan keçdikdən sonra onların şəxsiyyətləri yoxlanılır və barələrində qüvvədə olan həbs qərarları əsasında saxlanılırdı. Beləliklə, polis uzun müddət axtarışda olan şəxsləri əlavə risk yaratmadan ələ keçirə bilib.

Əməliyyatın uğurlu alınmasının əsas səbəblərindən biri də dövrün texnoloji reallıqları ilə bağlı idi. Xüsusilə 2000–2005-ci illərdə DVD cihazları ev-əyləncə bazarının ən çox tələb olunan məhsullarından biri idi. Həmin dövrdə DVD pleyer qazanmaq bu gün bahalı smartfon və ya oyun konsolu qazanmaq qədər cəlbedici hesab olunurdu. Məhz buna görə də çox sayda axtarılan şəxs polis tərəfindən qurulan tələyə düşüb.

POLİS
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.
REDAKTOR:
ANAR QAFAROV
Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 11454
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-95-69; 590-99-55; 590-99-30
E-poçt: metbuat@mia.gov.az
Qiyməti 40 qəpik